# ESPFC Layihəsinin Xəbər Bülleteni

3-ci buraxılış, 2014-cü il

## Hesablama Palatasının rəhbəri Vüqar Gülməmmədov ilə müsahibə



*Sual: Bildiyiniz kimi, Avropa İttifaqının dəstəyi ilə bir qrup ictimai birlik Azərbaycanda "Kənar nəzarətin gücləndirilməsi" layihəsi üzrə tədqiqatlar aparır və təkliflər hazırlamaq istiqamətində fəaliyyət göstərir. Hesablama Palatası və bu ictimai birliklər qrupu arasında əməkdaşlığa necə baxırsınız? Bu əməkdaşlıq hansı formalarda mümkün ola bilər?*

Ümumiyyətlə dövlətin qabaqcıl idarəetməsinin təmin edilməsi kontekstində daha effektiv nəticələrin əldə edilməsi üçün bir sıra amillərin və ilkin şərtlərin təmin edilməsi zəruridir.

Belə şərtlərdən biri də dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində ümumdövlət səviyyəsində qərarların qəbulunda, dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində və dövlət cavabdehliyinin artırılmasında vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakına xüsusi əhəmiyyətin verilməsidir.

Xüsusilə vətəndaşların, vətəndaş cəmiyyəti institutları və ictimai birliklərin ictimai müzakirələr vasitəsilə effektiv nəzarətin təmin edilməsi üçün təsirə malik olduqlarını nəzərə alaraq, kənar dövlət maliyyə nəzarətinin fəaliyyəti haqqında ictimaiyyətin məlumatlılığının artırılması üçün Ali Audit Qurumları tərəfindən əlaqələrin qurulması böyük əhəmiyyət kəsb edir.

Vətəndaş cəmiyyəti institutları ilə geniş müzakirələrin audit nəticəsində verilən tövsiyələrin daha hazırlıqlı şəkildə icra edilməsini təmin etdiyinə və vətəndaşların AAQ-lara olan etimadını möhkəmləndirdiyinə görə kənar dövlət maliyyə nəzarətinin dəyər və faydasının artmasına müsbət təsir etmiş olur.

Qarşılıqlı əməkdaşlığımızın Avropa İttifaqının dəstəyi ilə bir qrup ictimai birlik tərəfindən aparılan Azərbaycanda "Kənar nəzarətin gücləndirilməsi" layihəsinin də müsbət töfhələr verəcəyinə ümid edirik.

*Sual: Gənc yaranma və inkişaf tarixinə malik Hesablama Palatası öz fəaliyyətində beynəlxalq əməkdaşlığa və beynəlxalq təcrübəninin öyrənilməsi və tətbiqinə hansı yer verir və bunun Palatanın nəzarət fəaliyyətinə təsiri barədə məlumat verməyinizi xahiş edirik.*

Möndəricat:


- Hesablama Palatasının rəhbəri Vüqar Gülməmmədov ilə müsahibə (səhifə 1);
- Layihə çərçivəsində Şəkidə növbəti seminar təşkil olunmuşdur (səhifə 3);
- "Dövlət vəsaitləri üzərində kənar nəzarət" mövzusunda konfrans keçirilmişdir (səhifə 3);
- İctimai vəsaitlərin idarə edilməsi və nəzarəti mövzusunda radio müzakirələr keçirilmişdir (səhifə 4);

Hesablama Palatası yarandığı ilk illərdən Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI-ın, onun Regional İşçi Qrupları Ali Audit Qurumlarının Avropa Təşkilatının (EUROSAI) və Ali Audit Qurumlarının Asiya Təşkilatının (ASOSAI), habelə İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv olan ölkələrin Ali Audit Qurumları Birliyinin (ECOSAI) və MDB iştirakçısı olan dövlətlərin Ali Maliyyə Nəzarəti Orqanlarının (AMNO) rəhbərləri Şurasının üzvlüyünə qəbul olmuş və bir sıra qabaqcıl inkişaf tarixinə və təcrübəsinə malik xarici ölkələrin Ali Audit Qurumları ilə qarşılıqlı əməkdaşlıq haqqında sazişlər imzalamışdır.

Bu təşkilatlarla, eləcə də xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən orqanlarla ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi Palatanın fəaliyyətinin təkmilləşdirilməsində mühüm rol oynamaqdadır.

Hazırda Hesablama Palatasının inkişafına yönələn və Dünya Bankının dəstəyi ilə həyata keçirilən Korporativ və Dövlət Sektorunda Hesabatlılıq Layhəsinin (CAPSAP) "Dövlət sektorunda hesabatlılıq" adlı 2-ci komponentinin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında "Korporativ və Dövlət Sektorunda Hesabatlılıq" Layihəsi üzrə texniki yardım haqqında Saziş" çərçivəsində Palatanın fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi və INTOSAI-ın Lima və Mexiko bəyannamələrinə və ISSAI standartlarına uyğun olaraq beynəlxalq standartların Azərbaycan dilinə tərcüməsi və bu standartlar əsasında milli standartların hazırlanması məsələsinə başlanılmışdır. Belə ki,  ISSAI standartlarına uyğun olaraq CAPSAP layihəsi çərçivəsində "Səmərəlilik auditinin tətbiqi", "Maliyyə auditinin təkmilləşdirilməsi", "Qanunvericilik və standartlar bazasının gücləndirilməsi" və "İnsan resursları və təlimin təkmilləşdirilməsi" komponentləri üzrə tender elan edilmiş və tenderin nəticəsi üzrə qalib beynəlxalq təşkilatlarla qeyd olunan komponentlərin 18 ay ərzində həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu Layihə çərçivəsində Ali Audit Qurumlarının Beynəlxalq Standartları (ISSAI) əsasında kənar auditin milli standartlarının hazırlanaraq tətbiq edilməsi, eləcə də Palatanın qanunvericilik bazasının gücləndirilməsi Hesablama Palatası tərəfindən aparılan nəzarət tədbirlərini keyfiyyətcə yeni - beynəlxalq səviyyəyə qaldırmaqla maliyyə nəzarəti sisteminin gücləndirilməsinə və Lima və Mexiko Bəyannamələri ilə müəyyən edilmiş prinsiplərin tətbiq edilməsi ilə yanaşı, AAQ-ların dəyər və faydalarının daha nəzərə çarpan şəkildə təbliğ edilməsinə xidmət etmiş olacaqdır.

*Sual: Hesablama Palatasının fəaliyyətində hansısa inkişaf yeniliklərinə ehtiyac görürmüsünüz? Əgər belələri varsa, xahiş edərdik onları oxucularımız üçün şərh edəsiniz.*

Əvvəlki sualınıza verilən cavabda göstərilənlərdən əlavə onu qeyd etmək istərdik ki, Hesablama Palatasının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının beynəlxalq standartlara, xüsusilə "Auditin rəhbər prinsipləri haqqında" Lima Bəyannaməsinin və "Ali Audit Qurumlarının müstəqilliyi haqqında" Mexiko Bəyannaməsinin tələblərinə uyğunlaşdırılması kənar dövlət maliyyə nəzarətinin fəaliyyəti ilə əlaqədar bugünki dünyamızın başlıca tələblərindən biridir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 66-cı sessiyasında qəbul edilmiş "AAQ-ların gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında" 2011-ci il 22 dekabr tarixli Qətnamə və Birləşmiş Millətlər Təşkilatı ilə INTOSAI-ın birgə Avstriyanın paytaxtı Vyana şəhərində  "Ali Audit Qurumları tərəfindən Audit və Tövsiyələrin verilməsi: Risk və İmkanlar, Vətəndaşların cəlb edilməsi imkanları" mövzusunda təşkil edilmiş 22-ci Simpoziumunda qəbul edilmiş nəticə və tövsiyələr Ali Audit Qurumlarının  cavabdeh, effektiv və şəffaf dövlət idarəçiliyinin Minilliyin İnkişaf Məqsədləri də daxil olmaqla beynəlxalq səviyyədə razılaşdırılmış inkişaf məqsədlərinin həyata keçirilməsində əsas rol oynadığını qeyd etməklə "Auditin rəhbər prinsipləri haqqında" Lima Bəyannaməsini və "Ali Audit Qurumlarının müstəqilliyi haqqında" Meksika Bəyannaməsini yüksək qiymətləndirərək BMT üzv dövlətləri qeyd olunan bəyannamələrdəki prinsipləri milli institusional strukturlarına müvafiq olaraq tətbiq etməyə və onların

gücləndirilməsinə çağırması kənar maliyyə nəzarəti orqanlarına olan etimadı və dövlət vəsaitlərinin qorunub saxlanmasındakı rolunu və əhəmiyyətini dünya səviyyəsində bir daha ortaya qoymuş oldu.

Bu baxımdan, beynəlxalq təcrübədə kənar dövlət maliyyə nəzarətinin təşkili xüsusiyyətlərinin, ümumi inkişaf istiqamətləri və cəhətlərinin öyrənilməsinin və milli qanunvericiliyə tətbiqinin xüsusi əhəmiyyəti vardır.

* * *

**Layihə çərçivəsində Şəkidə növbəti seminar təşkil olunmuşdur**




İqtisadi Tədqiqatlar Mərkəzi (İTM) 18 avqust 2013-cü il tarixdə Şəkidə "İctimai Maliyyənin idarə edilməsi və ictimai iştirakçılıq" mövzusunda seminar keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan layihə direktoru Sabit Bağırov layihənin məqsədlərindən və seminarın qarşısında duran vəzifələrdən danışıb. "İctimai maliyyə institutları və onların büdcə prosesində rolu və bu prosesdə ictimai iştirakçılıq imkanları" mövzusunda təqdimatla çıxış edən layihənin eksperti, İTM-nin İdarə Heyətinin üzvü Qubad İbadoğlu seminar iştirakçılarına öncə ictimai maliyyə və büdcə sistemi, dövlət maliyyəsinin mahiyyəti, dövlət maliyyənsinin idarə olunması, ona nəzarət edən təşkilatlar və onun funksiyaları, büdcə və onun icrasına nəzarət prosesində ictimai iştirakçılıq formaları və iştirakçılıq imkanları barədə geniş məlumat vermişdir.

Tədbir iştirakçıların sualları və qarşılıqlı müzakirələrlə davam etmişdir. Tədbirdə 15-dən çox yerli vətəndaş cəmiyyətinin nümayəndələri, VCF Azərbaycan Milli Platformasının üzvləri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak etmişlər.

**"Dövlət vəsaitləri üzərində kənar nəzarət" mövzusunda konfrans keçirilmişdir**

Layihə çərçivəsində ictimai vəsaitlər üzərində kənar nəzarətə dair beynəlxalq təcrübəni təqdim etmək və Azərbaycan Respublikasında kənar nəzarət institutlarının fəaliyyətini gücləndirmək üçün hazırlanmış tövsiyələri müzakirə etmək məqsədilə 17 yanvar 2014-cü il tarixində bir günlük konfrans təşkil edilmişdir.

Tədbiri giriş sözü ilə açan layihə Direktoru Sabit Bağırov layihənin məqsədi, görülən işlər, eləcə də kənar auditin səmərəliliyinin artırılması və Hesablama Palatasının potensialının gücləndirilməsi istiqamətində hazırlanmış tövsiyələr paketi barədə qonaqlara məlumat vermişdir.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov, Avropa İttifaqı Bakı Nümayəndəliyinin Əməkdaşlıq Departamentinin rəhbəri Federiko Berna, Azərbaycan Respublikası Hesablama Palatasının Hüquq və Dövlət Qulluğu şöbəsinin müdiri Faiq Nəcəfov, Avropa Birliyinin Azərbaycandakı Nümayəndəliyinin proqram rəhbəri Olaf Heydelbax tədbir iştirakçılarını salamlayaraq layihənin əhəmiyyəti barədə söz açmış, layihə çərçivəsində hazırlanan tövsiyələr paketinin vacibliyini qeyd etmişdirlər.

Kənar nəzarətin həyata keçirilməsi mövzusunda təşkil olunmuş ilk sessiya zamanı İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) nümayəndəsi Rəşad Həsənov kənar nəzarətin həyata keçirilməsi

praktikasının təhlili və tövsiyələrlə çıxış etmişdir. İSİM sədri Vüqar Bayramov dövlət vəsaitlərinə dair parlament müzakirəsinin təhlili mövzusunda çıxış etmiş və öz tövsiyələrini irəli sürmüşdür.

Qanunvericiliyin təkmilləşdirilməsinə dair təşkil olunan ikinci sessiyada “Azad İqtisadiyyata Yardım” İctimai Birliyi nümayəndəsi Kənan Aslanlı çıxışında ictimai vəsaitlər üzərində kənar nəzarət: beynəlxalq təcrübədən söz açmışdır. Birliyin rəhbəri Zöhrab İsmayıl qanunvericiliyin təhlilinin nəticələri barədə danışmış və müvafiq istiqamətdə tövsiyələr irəli sürmüşdür. İqtisadi Tədqiqatlar Mərkəzinin eksperti Qubad İbadoğlu Hesablama Palatasının tövsiyələrinə dair öz rəyini açıqlamışdır. Çıxışlar başa çatdıqdan sonra tədbir iştirakçıları sual və təkliflərini səsləndirmişlər.





Tədbirdə Hesablama Palatasının rəhbərliyi və mütəxəssisləri, millət vəkilləri, müxtəlif nazirliklər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

**İctimai vəsaitlərin idarə edilməsi və nəzarəti mövzusunda radio müzakirələr keçirilmişdir**

Layihə çərçivəsində ilk radio müzakirə 26 iyul 2013-cü il tarixində Obyektiv TV-də keçirilmişdir. Verilişin aparıcısı Hafiz Babalı Hesablama Palatasının fəaliyyətinin səmərəliliyinin artırılması mövzusunu layihənin direktoru Sabit Bağırov, ekspertlər Kənan Aslanlı və Rəşad Həsənov ilə müzakirəsi etmişdir. Müzakirənin video yazısı ilə növbəti linkdən tanış olmaq mümkündür: http://youtu.be/-a763cLZPqc

Kənar nəzarətin, eləcə də xarici auditin səmərəliliyinin yaxşılaşdırılması məqsədilə layihə ekspertləri tərəfindən hazırlanmış tövsiyələrin müzakirəsinə həsr olunmuş ikinci radio müzakirə 08 fevral 2014-cü il tarixində Azadlıq Radiosunda baş tutmuşdur. Azad İqtisadiyyata Yardım İctimai Birliyinin sədri Zöhrab İsmayıl, layihənin eksperti Kənan Aslanlı və Milli Məclisin üzvü Zahid Oruc (telefon vasitəsilə) verilişin qonaqları olmuşlar. Verilişin video yazısı növbəti linkdə yer alır: https://www.youtube.com/watch?v=-X8qPLhqrmA&feature=youtube_gdata_player

Bülleten kənar nəzarət və auditin səmərəliliyini artırmaq məqsədilə Avropa Komissiyasının maliyyə dəstəyi ilə Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu tərəfindən həyata keçirilən İctimai Vəsaitlərə Effektiv Nəzarət Layihəsi çərçivəsində hazırlanıb. Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir. Şərh və ya təkliflər üçün bülletenin redaktoru Fərid Məlikov ilə espfcp@gmail.com elektron poçt ünvanı və ya 00994 12 490 05 66 nörməli telefon vasitəsi ilə əlaqə saxlaya bilərsiniz.

Müəlliflik hüququ qorunur, Bazar İqtisadiyyatı və Sahibkarlığın İnkişafına Yardım Fondu 2013